# Fransanın cinayətləri ifşa edilir

## Bakı Təşəbbüs Qrupu bu istiqamətdə vacib platforma rolunu oynayır

**"Azərbaycan dövləti və onun ali siyasi rəhbərliyi daim bəşəriyyət əleyhinə ən ağır cinayət növlərindən biri olan müstəmləkəçilik əleyhinə çıxış edir. Dövlətimiz haqları tapdalanan xalqların yanındadır, haqqın, ədalətin müdafiəçisidir. Qoşulmama Hərəkatına dörd illik sədrliyi dövründə də məhz müstəmləkəçilik əleyhinə mübarizəni təbliğ və təşviq edib, bu sahədə konkret addımlar atıb".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat qeyd edib ki, Azərbaycan məzlum xalqların yanındadır: "Bu nöqteyi-nəzərdən Fransanın müstəmləkələri olan Yeni Kaledoniya, Fransa Polineziyası və digər ərazilərdə xalqların azadlıq mübarizəsini dəstəkləyir. Fransanın XXI əsrdə insanların azadlıq mübarizəsini qan içində yatızdırması qəbuledilməzdir. Bu ölkənin Yeni Kaledoniyada törətdiyi cinayətlər bəşəriyyət əleyhinə yönəlib. Həmin ərazilərdə baş verən iğtişaşlar nəticəsində 10 nəfərdən çox insan azadlıq mübarizəsinə görə qətlə yetirilib, yüzlərlə insan həbs edilib. Fransa hökuməti, həmçinin kanakların etiraz aksiyasının beynəlxalq aləmə çatdırılmasına mane olur və çirkin məqsədləri üçün əlindəki bütün imkanlardan istifadə edir. Eyni zamanda Yeni Kaledoniyaya giriş qadağan edilib, ərazidə fövqəladə vəziyyət və komendant saatı kimi təzyiq üsulları işə salınıb".

Deputatın sözlərinə görə, özünü "demokratiyanın beşiyi" hesab edən Fransanın cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması vacibdir. Dünya fərqinə varmalıdır ki, eninə-uzununa demokratiyadan danışan, beynəlxalq ictimaiyyətə özünü "demokrat" kimi sırıyan Fransa və onun siyasi rəhbərliyi, əslində, ən ağır cinayətlərə imza atırlar. Bakı Təşəbbüs Qrupunun məhz bu istiqamətdə atdığı addımlar, habelə bu gün hibrid formada mühüm tədbir keçirmək niyyəti təqdirəlayiqdir. Bu tədbirdə ilk növbədə müstəmləkəçilik siyasəti, ona qarşı mübarizə üsulları və bu prosesdə kommunikasiyanın rolu ilə bağlı məqamlar diqqət mərkəzində saxlanılacaq.

"Bir çox ölkədən jurnalistlər, bloqçular və vətəndaş cəmiyyəti institutunun təmsilçiləri bu müzakirələrdə iştirak edəcəklər. Onlar beynəlxalq ictimaiyyətə Fransanın törətdiyi cinayətlərin mahiyyətini və Parisin bu gün də yerli əhaliyə qarşı törətdiyi ağır cinayətlər haqqında məlumatları çatdıracaqlar. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, bu tədbir Fransanın yaratdığı informasiya blokadasını yarmaq, dağıtmaq və Yeni Kaledoniya həqiqətlərini, kanakların başına gələn müsibətləri beynəlxalq aləmdə səsləndirmək üçün vacib platforma rolunu oynayacaq. Bakı Təşəbbüs Qrupu bu istiqamətdə çox uğurlu siyasət həyata keçirir", - deyə müsahibimiz əlavə edib.

Elman Nəsirov yekunda deyib ki, Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi bu tədbir Makronun Afrika qitəsində həyata keçirdiyi amansız siyasətin iflasa uğramasına töhfə verə bilər: "Heç kəsdə şübhə doğurmur ki, həqiqət gec-tez öz yerini tapacaq. Kanaklar və Fransanın müstəmləkəsi altında olan digər xalqlar haqq mübarizəsində qalib gələcəklər. Onların azadlıq arzularını qan içində boğan Fransa isə növbəti dəfə məğlubiyyətə uğrayacaq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.-13 iyun, №124.-S.6.